# Nəsimi yaradıcılığı: Milli-mənəvi dəyərlərimizin ayrılmaz tərkib hissəsi

***Məndə sığar iki cahan, mən bu cahana sığmazam!***
***Gövhəri-laməkan mənəm, kövnü məkana sığmazam!***

Bu məşhur misraların müəllifi İmadəddin Nəsimi... Azərbaycan tarixində çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoyan dahi mütəfəkkir, görkəmli şəxsiyyət...

Azərbaycan tarixində çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoyub. Onun zəngin irsi bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsində mühüm rol oynayır.

İmadəddin Nəsimi əsərlərində daim insanın əzəmətini, insani məhəbbəti və şəxsiyyətin azadlığını tərənnüm etmişdir. Nəsimi Azərbaycan şeir dilini yüksək bir zirvəyə qaldıran, öz əsərlərində dövrün mütərəqqi fikirlərini tərənnüm edən, böyük Nizaminin Şərq ədəbiyyatına gətirdiyi qabaqcıl ideyaları davam və inkişaf etdirib öz amalı uğrunda yorulmadan mübarizə aparan və bu yolda mərdliklə ölümə gedən fədakar bir sənətkardır. Onun Azərbaycan ədəbi dilinin inkişafında böyük xidmətləri olmuşdur.

Ulu öndər Heydər Əliyevin siyasətini bütün istiqamətlərdə uğurla davam etdirən Prezident İlham Əliyevin ana dilimizin və elmimizin inkişafı ilə bağlı bir sıra mühüm addımlar atıb. 2019-cu ilin ölkəmizdə "Nəsimi ili" elan edilməsi də bu addımlar silsiləsindəndir. Bu mühüm addım əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan ənənənin davamıdır. Ulu Öndər hələ respublikaya rəhbərliyinin birinci dönəmində elmə, mədəniyyətə, ədəbiyyata və incəsənətə, xüsusilə də xalqımızın mənəvi sərvəti olan ana dilimizə böyük diqqət və qayğı ilə yanaşıb, bu yöndə bir sıra məqsədyönlü tədbirlər həyata keçirib.

"Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında", həmçinin 2019-cu ilin "Nəsimi İli" elan edilməsi ilə bağlı sərəncamlarda da bu reallıqlar öz əksini tapıb ki, şairin irsinin ölkəmizdə sistemli tədqiqi və təbliği ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Nəsiminin 600 illik yubileyinin keçirildiyi vaxta təsadüf edir.

600 illik yubiley çərçivəsində Nəsiminin adının o vaxt Azərbaycan Elmlər Akademiyasının Dilçilik İnstitutuna verilməsi də təsadüfi deyil. Anadilli ədəbiyyatımızda fəlsəfi şeirin əsasını qoyan Nəsiminin ən böyük xidmətləri sırasında milli Azərbaycan ədəbi dilinin daha da inkişaf etdirilməsi və onu yeni-yeni söz və ifadələrlə zənginləşdirməsi mühüm yer tutur. Məhz bu amil respublikamızda dilçilik sahəsində fundamental araşdırmaların mərkəzi və aparıcı qurumu kimi tanınan Dilçilik İnstitutuna böyük Azərbaycan şairi Nəsiminin adının verilməsi məsələsində mühüm rol oynamışdır. Bununla yanaşı, 1973-cü ildə "Nəsimi" bədii filmi çəkilib. Yubiley tədbirlərinin davamı olaraq 1979-cu ildə Bakının mərkəzində şairin möhtəşəm heykəli ucaldılıb.

Nəsiminin 650 illik yubileyinin qeyd olunması o dövrün ideologiyasına, fəlsəfəsinə uyğun olaraq Nəsimi ideyalarını elmi cəhətdən



əsaslandırmaq, həmçinin əsərlərini elmi şəkildə tədqiq etmək, dərin fəlsəfi məna tutumunu araşdırmaq və olduğu kimi Azərbaycan cəmiyyətinə, o cümlədən elmi ictimaiyyətə çatdırmaq, onu dünyaya tanıtdırmaq üçün bir fürsətdir.

Sovet ideologiyasının qoyduğu məhdudiyyətlər və çərçivələr Nəsiminin Azərbaycan ədəbiyyatının, fəlsəfəsinin, mədəniyyətinin inkişafında oynadığı rolu vaxtında tam şəkildə geniş ictimaiyyətə çatdırmağa imkan vermirdi. Bu birtərəfli yanaşma isə Nəsiminin az qala ateist kimi təqdim edilməsinə şərait yaradırdı. Amma fakt odur ki, Nəsiminin bütün əsərlərində "Qurani-Kərim"ə və hədislərə istinadlar var. Onun ilk mənbəyi də müqəddəs kitab idi. Hətta öz fikirlərini "Qurani-Kərim" əsasında yayırdı. Nəsimi insana böyük dəyər verir, onu ucaltmaqla bir növ gələcək təhlükələrdən qorumaq istəyirdi. Sözsüz ki, Allah-Təalanın yaratdığı ən uca varlıq insandır, ən kamili də insandır. Nəsimi fəlsəfəsinə görə, yalnız kamil insan Allahı dərk edə bilərdi. Buna görə də kamil insanın Allahı dərk edərək ona qovuşacağına inanır, bütün süfilər kimi, Nəsimi də bu dünyanı fani, müvəqqəti hesab edirdi.

Elmi mənbələr və tarixi qaynaqlar sübut edir ki, Nəsimi edam edilmədən öncə üç dini cərəyanın qaziləri onu mühakimə edəndə şairin əsərlərində dinə qarşı çıxış etməsi barədə heç nə tapa bilməyiblər. Bu halda Misir məmlük sultanı əl-Məlik əl-Müəyyədə müraciət ediblər ki, Nəsimi haqqında hökmü onun özü çıxarsın. Əl-Müəyyəd onun edamı haqqında qərarı ona görə çıxarıb ki, əleyhdarları Nəsimini qəbul edir və yaydığı fikirlərdən ona qarşı istifadə edirdilər. Yəni, Nəsiminin edam edilməsində nəinki dini, əksinə siyasi məsələ daha çox rol oynayıb.

Azərbaycanın dərin dini-fəlsəfi biliyə malik olan görkəmli şairi Nəsiminin ədəbiyyatımızın inkişafında ən böyük xidmətlərindən biri Azərbaycan dilində fəlsəfi qəzəlin banisi olmasıdır. Ona qədər Azərbaycan dilində fəlsəfi qəzəl yazan olmayıb. Həmin dövrdə ana dili ilə yanaşı, ərəbcə və farsca əsər yazan ilk Azərbaycan şairi də Nəsimi olub. İnsan zəkasının və gözəlliyinin tərənnümçüsü olan şairin yaradıcılığına xas olan digər xüsusiyyət odur ki, Nəsimi bütün əsərlərini əruz vəznində yazıb. Əruz vəzni bizə ərəb dilindən gəlib. Nəsiminin xidmətlərindən biri odur ki, o, əruz vəznini dilimizə tətbiq edərək Azərbaycan dilinin təkmilləşdirilməsi və türk əruzunun formalaşmasına mühüm töhfələr verib.

Nəsimi ana dili ilə yanaşı, fars və ərəb dillərində də yazıb. Nəsiminin ana dilimizdə və farsca olmaqla iki divanı bizə gəlib çatıb. Azərbaycan dilində olan divanı dəfələrlə nəşr olunub. Farsca divanı ilk dəfə şərqşünas-alim Rüstəm Əliyev tərəfindən İranda aşkar edilib və farsca nəşr edilib. Amma bir neçə şeirindən başqa, farsca divanı Azərbaycan dilinə tərcümə olunmayıb. Eyni zamanda, onun farsca yazdığı əsərləri tam araşdırılmayıb, bütövlükdə nəşr edilməyib. Ərəb dilində yazdığı əsərləri indiyə qədər tərcümə edilməyib, çap olunmayıb. "Nəsimi ili" çərçivəsində bu işlərin həyata keçirilməsi planlaşdırılır.

Ana dilli şeirin humanist ideyalarla, yeni məzmun, deyim tərzi və bədii lövhələrlə daha da zənginləşməsində unudulmaz şairin misilsiz xidmətləri vardır. Nəsiminin mənbəyini xalq ruhundan almış parlaq üslubu orta əsrlər Azərbaycan dilinin məna imkanlarını bütün dolğunluğu və rəngarəngliyi ilə əks etdirir.

Nəsiminin böyüklüyü ondadır ki, o, ana dilimizdə şah əsərlər yaradıb, işlətdiyi söz, ifadə və anlayışlarla bizim dilimizi zənginləşdirib. Məhz bu kontekstdə onu vurğulamaq yerinə düşər ki, ana dilinə böyük dəyər verən ulu öndər Heydər Əliyev bildirmişdir: "Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir, şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm". Bu fikirdən çıxış edərək deyim ki, ana dili bir millətin varlığı və ən böyük milli-mənəvi sərvətidir. Milləti dünyada tanıdan da onun dilidir. Dilimizin inkişafında Nəsiminin xidmətləri də az deyil, çünki o, sübut etdi ki, Azərbaycan dili həmin dövrdə geniş yayılmış ərəb və fars dilləri ilə eyni səviyyədə dayanan bir dildir. Bu xidmətin özü yüksək dəyərə layiqdir. Məhz buna görə də birmənalı şəkildə, demək olar ki, Azərbaycanda "Nəsimi İli" elan edilməsi elə "Azərbaycan dili ili" elan olunmasına bərabər bir hadisədir. Çünki xalqımızın ən böyük söz ustadlarından olan Nəsimi ana dilimizi yüksək zirvələrə qaldırıb.

Bir sözlə, dövlətimizin başçısı İlham Əliyevin ədəbiyyatımızın ən görkəmli nümayəndəsi İmadəddin Nəsimi irsinə bu qədər böyük diqqət və qayğısı xalqımızın mədəni həyatında çox əlamətdar və təqdirəlayiq hadisə kimi dəyərləndirilir. Bu kimi mühüm addımlar ölkəmizdə yüksək ideallara, mənəvi həyata, mədəniyyətə, şeirə, sənətə, onların inkişafına nə qədər böyük diqqət yetirildiyinin təzahürüdür.

Aparılan araşdırmalar bu qənaətə gəlməyə əsas verir ki, Nəsiminin yaradıcılığı milli-mənəvi varlığımızın ayrılmaz tərkib hissəsidir. "Nəsimi ili" ölkəmizdə nəsimişünaslığın inkişafına böyük təkan verəcəyini bildirən elmi ictimaiyyət bu mühüm məqamı da önə çəkirlər ki, Nəsimi yaradıcılığının mübarizliyi, haqqı bütün varlığı ilə müdafiə etməsi örnək olaraq bütün xalqımıza, xüsusilə də gənc nəslə öz müsbət təsirini göstərəcək.

**Yaqut Ağaşahqızı,**
***"İki sahil"***